# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

# VAKANSİYA ELANI

## İqtisadi təhlil, tarif və statistika şöbəsi

## Aparıcı analitik

**Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycanda elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin şəffaflıq prinsipi çərçivəsində tənzimlənməsini, müəssisələrin fəaliyyətinin operativ və dəqiq təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.**

### VƏZİFƏ ÖHDƏLİKLƏRİ:

- Müvafiq sahədə tariflərin (qiymətlərin) iqtisadi cəhətdən əsaslılığı, səmərəliliyi və bazarın tənzimlənməsi baxımından optimallığının müəyyənləşdirilməsi üçün araşdırmalar aparmaq, subyektlərin tarifləri barəsində qabaqcıl təcrübəyə əsaslanmış hesabatlar hazırlamaq və təkliflər vermək;
- Müvafiq sahənin səmərəli fəaliyyətini və istehlakçılara aşağı tariflə (qiymətlə) yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün balanslaşdırılmış investisya yönümlü tarif mexanizmlərini işləmək;
- Elektrik və istilik enerjisi, habelə qaz üzrə qiymətlərin (tariflərin) tənzimlənməsi məsələləri ilə bağlı xarici ölkələrin qabaqcıl təcrübəsini öyrənmək;
- Müvafiq sahədə bazar münasibətlərinin qurulması üçün tarif (qiymət) siyasətinin cari və perspektiv istiqamətləri barədə təkliflər vermək;

### TƏLƏBLƏR:

- Ali təhsil (İqtisadiyyat və idarəetmə, tətbiqi riyaziyyat və s. müvafiq ixtisaslar üzrə);
- Yaş həddi 28-50 aralığı;
- İxtisası üzrə azı 4 il iş stajı;
- Microsoft Office proqramlarında işləmə bacarığı;
- Rus və ingilis dillərini bilməsi arzuolunandır;
- Tarif tənzimlənməsi məsələləri ilə bağlı qanunvericilik və digər normativ hüquqi bazalara dair bilik olmalıdır.

### DİGƏR:

- Əmək haqqı yüksəkdir və müsahibənin nəticəsinə əsasən müəyyən olunacaqdır;
- İş qrafiki: 09:00 – 18:00 / nahar fasiləsi 13:00 – 14:00;
- İstirahət günləri: şənbə və bazar günləri;
- Məzuniyyət müddəti: 30 təqvim günü
- Vakansiya üzrə müraciətin son müddəti: 15 iyun 2018-ci il
- İş yerinin ünvanı: Bakı şəhəri, Heydər Əliyev pr. 152, Çinar Plaza

**Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini foto ilə birlikdə tenzimleme@minenergy.gov.az poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (aparıcı analitik) qeyd edin.**